# "Şahdağ" Qış-Yay Turizm Kompleksi dünya brendinə çevrilir

Bu gün Azərbaycan sosial-iqtisadi sahədə qazandığı uğurları davamlı şəkildə genişləndirməklə yanaşı, yeni və nümunəvi xarakterli nailiyyətlərin müəllifi kimi çıxış etməkdədir. Nazirlər Kabinetinin son iclasında dövlət başçısı bir daha vurğuladı ki, görülən işlər bu ilin də uğurla başa çatacağından xəbər verir. Xüsusilə Azərbaycanda turizmin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər böyük nəticələr vəd edir.



Dünyada əsasən neft-qaz ölkəsi kimi tanınan Azərbaycanda qeyri-neft sektorunun, xüsusilə aqrar sahənin və turizmin inkişafı üçün geniş imkanlar var. Son illərin təcrübəsi göstərir ki, çox böyük turizm potensialına malik Azərbaycan bu sahədə uğurların müəllifi kimi çıxış edir. Bu gün ölkəmizə dünyanın dörd bir yanından turist gəlir. Qeyri-neft sektorunun aparıcı sahəsi olan turizmin inkişafında regionların xüsusi çəkisinin davamlı surətdə artması isə bölgələrdə əhalinin maddi rifah halının yüksəlməsinə təsir edir.

Öz nadir təbiəti ilə dünyanı heyran qoyan Azərbaycanın şimal bölgəsi, o cümlədən Qusar rayonu hər zaman turistlərin tez-tez baş çəkdikləri sevimli məkanlar sırasındadır. Bu rayon yalnız flora və faunası, təbii gözəllikləri ilə yox, həm də qədim tarix-mədəniyyət abidələri, sənətkarlıq nümunələri ilə də diqqəti cəlb edir. İnsan düşüncəsini ram edən meşələrlə örtülü dağların qoynunda yerləşən, şəlaləli çayları, soyuq bulaqları, güzgü kimi bərq vuran gölləri olan Qusar hələ sovetlər dönəmində turistlərin seçdiyi, həvəslə gəldikləri məkanlardan biridir. Həmin dövrdə infrastruktur o qədər ürəkaçan olmasa da, bu yerlərdən o zaman da turist əskik olmazdı. Bu gün isə Şahdağın ətəklərində qərar tutmuş Qusar nəinki Azərbaycanın, eləcə də bütün Qafqazın ən mükəmməl turizm infrastrukturuna malik rayonlarındandır. İlin bütün fəsillərində burada səyahətə çıxan təbiət həvəskarına rast gəlmək mümkündür. İsti aylarda gözəlliyi ilə göz oxşayan meşələri, qışda pambıq kimi ağappaq qara bürünmüş dağ və dərələri buraya yolu düşənləri ovsunlayır, onları təkrar-təkrar bu füsunkar diyara qayıtmağa məcbur edir.

Götürək Prezident İlham Əliyevin sərəncamına əsasən inşa edilən "Şahdağ" Qış-Yay Turizm Kompleksini. "Şahdağ" Milli Parkının ərazisindəki bu kompleks turistlərin hər zaman baş çəkdikləri ən sevimli məkanlar sırasında yer alıb. Onu da qeyd edək ki, son 10 ildə "Şahdağ" Qış-Yay Turizm Kompleksi respublikamızda ən böyük sərmayə qoyulan turizm obyektidir.

Qusar şəhərindən 30 kilometr şimalda, dəniz səviyyəsindən 1.300-3.200 metr hündürlükdə yerləşən kompleks dünyadakı bu tipli komplekslərdən nadirliyi ilə fərqlənir. Ölkəmizdə ilk dağ-xizək kurortu olan kompleksin inşası bir neçə mərhələdə aparılıb. Təməli 2009-cu ilin sentyabrında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə qoyulan kompleks 2000 hektardan artıq sahəni əhatə edir. Onun Qusar rayonunda işsizlik probleminin həllində, kənd təsərrüfatının, sahibkarlığın, sənətkarlığın inkişafında, büdcə gəlirlərinin artmasında, infrastruktur sahələrinin sürətlə yenidən qurulmasında və rayonun tanınmasında əvəzsiz rolu var. Hazırda turizm kompleksində təkcə qusarlılar deyil, yaxın rayonlardan yüzlərlə gənc çalışır. İşçilərin, demək olar ki, böyük hissəsi turizm üzrə ali təhsil alan gənclərdir. Məhz bu cür yüksəkixtisaslı kadrlar sayəsində kompleksdə ilin bütün fəsillərində minlərlə turist istirahət edir.





Turizm kompleksi yeni istifadəyə verildiyindən buraya gələnlərin əksəriyyətinin məlumatlandırılmasına ehtiyac yaranır. Bu problemi həll etmək üçün girişdə informasiya məntəqəsi yaradılmışdır. Məntəqədə turistlərə hava şəraiti ilə əlaqədar hansı liftlərin açıq, hansılarının bağlı olması, xizək yollarında qarın vəziyyəti barədə və digər informasiyalar verilir.

Kompleksin yaxınlığında yerləşən Qusar şəhəri isə buraya gələnlər üçün bir gəzinti və xatirə toplusudur. Yerli əhalinin duzlu-məzəli lətifələri, qonaqlara xoş münasibəti turistlərin istirahətinin tərkib hissəsinə çevrilir. Yay günləri rayonun park və xiyabanlarında təşkil olunan konsertlər, mədəniyyət ocaqlarında göstərilən tamaşalar da turistlərin marağına səbəb olur.

Ümumiyyətlə desək, Qusarda turizmin inkişafı sahəsində ardıcıl əməli tədbirlər həyata keçirilir. Ötən illər ərzində rayona gələn turistlərin sayında müşahidə edilən artım da bunu təsdiq edir. "Şahdağ" Qış-Yay Turizm Kompleksinə daxil olan "Şahdağ" və "Pik Palas", "Zirvə" hotelləri tam şəkildə fəaliyyət göstərir. Burada turistlərin qəbulu üçün zəruri infrastruktur yaradılıb.

Hazırda mövcud potensialdan daha səmərəli istifadə olunması üçün bu işdə yerli sahibkarlara lazımi dəstək verilir. Ölkə rəhbərinin vaxtaşırı Qusara səfərlər etməsi, kompleksdə görülən işlərlə maraqlanması, tapşırıq və tövsiyələr verməsi həm iş adamlarının, həm də icra orqanlarının fəaliyyət proqramına çevrilir.

***Akif ƏLİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***